# "ATL TECH"MMC

**Xüsusi Məqsədli Maliyyə Hesabatları və Müstəqil Auditorun Rəyi**

01 yanvar 2019-ci il tarixdən
31 dekabr 2019-ci il tarixinədək olan dövr üzrə

"ATL TECH" Məhdud Məhsuliyyətli Cəmiyyətinin rəhbərliyinə

**Səhifə**

| | |
|---|---|
| MÜNDƏRİCAT | 1 |
| 01 YANVAR 2019-Cİ İL TARİXDƏN 31 DEKABR 2019-Cİ İL TARİXİNƏDƏK OLAN DÖVR ÜZRƏ XÜSUSİ MƏQSƏDLİ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR BƏYANAT | 2 |
| MÜSTƏQİL AUDİTORUN RƏYİ | 3-4 |
| 31 DEKABR 2019-Cİ İL TARİXİNƏ BALANS HESABATI | 5-7 |
| 01 YANVAR 2019-Cİ İL TARİXDƏN 31 DEKABR 2019-Cİ İL TARİXİNƏDƏK OLAN DÖVR ÜZRƏ MƏNFƏƏT VƏ ZƏRƏR HESABATI | 8 |
| PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT | 9 |
| KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT | 10 |

“ATL TECH” Məhdud Məhsuliyyətli Cəmiyyətinin rəhbərliyinə
01 YANVAR 2019-Cİ İL TARİXDƏN 31 DEKABR 2019-Cİ İL TARİXİNƏDƏK OLAN DÖVR ÜZRƏ XÜSUSİ MƏQSƏDLİ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR BƏYANAT

Bu bəyanat “ATL TECH” (bundan sonra “Cəmiyyət”) Xüsusi Məqsədli Maliyyə Hesabatları (bundan sonra “Maliyyə Hesabatları”) ilə bağlı Cəmiyyət rəhbərliyinin və müstəqil auditorun göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır. Rəhbərlik, 31 dekabr 2019-ci il tarixinə maliyyə vəziyyətini və 01 yanvar 2019-ci il tarixdən 31 dekabr 2019-ci il tarixinədək olan dövr üzrə maliyyə nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda dəyişiklikləri əks etdirən Maliyyə Hesabatlarının Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına (“KTMMUS”) uyğun və düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə Hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılara cavabdehdir:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Hazırlanmış Maliyyə Hesabatlarının KTMMUS-a uyğunluğunun bəyan edilməsi və əgər bu standartlardan əhəmiyyətli kənarlaşmalar varsa, bu halların Maliyyə hesabatlarında açıqlanması və izah edilməsi;
- Əgər yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixə Maliyyə Hesabatlarının davamlılıq prinsipi əsasında hazırlaması.

Rəhbərlik, həmçinin aşağıdakılara görə məsuldur:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin Maliyyə Hesabatlarının KTMMUS-a uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin qorunmasının təşkil olunması;
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

01 yanvar 2019-ci il tarixdən 31 dekabr 2019-ci il tarixinədək olan dövr üzrə Maliyyə Hesabatları 06 May 2020-ci il tarixdə Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**Rəhbərlik adından:**

_______________________

**Direktor Anar Əliyev**

06 May 2020-ci il.
Bakı, Azərbaycan Respublikası

No.: ______________________

Tarix:

"ATL TECH" Məhdud Məsuliyyətli Cəmiyyətinin rəhbərliyinə
MÜSTƏQİL AUDİTORUN RƏYİ

**RƏY**

Biz, "ATL TECH" (bundan sonra "Cəmiyyət") 31 dekabr 2019-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu siyasətlərinin xülasəsi və digər izahlı qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.
Fikrimizcə, maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2019-ci il tarixinə olan maliyyə vəziyyətini və onun həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olmaqla bütün əhəmiyyətli hallarda düzgün əks etdirir.

**Rəy üçün Əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik bu maliyyə hesabatlarının MHBS-in tələblərinə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə və maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya xətalardan qaynaqlanan əhəmiyyətli təhriflərin qarşısının alınması məqsədi ilə zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkil edilməsinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Audit komitəsi Cəmiyyətin maliyyə hesabatlarının hazırlanma prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti***

Bizim məqsədimiz tərtib edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

City Point Baku, 9-cu mərtəbə,
C.Məmmədquluzadə küç. 102A,
AZ1022, Bakı, Azərbaycan
Tel: (+994 12) 310 24 20/21/40
Mob: (+994 55) 230 86 46
office@tidconsulting.com
www.tidconsulting.com

"ATL TECH" rəhbərliyinə

MÜSTƏQİL AUDİTORUN RƏYİ

Beynəlxalq Audit Standartlarının tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq əlbir hərəkətlər, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyəti verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Auditor Paşayeva R.A.

06 May 2020-ci il

Bakı, Azərbaycan Respublikası

AZƏRBAYCAN RESPUBLİKASI * TİD KONSALTİNQ QSC * AZERBAIJAN REPUBLIC * TID CONSALTING CJSC

“ATL TECH” Məhdud Məhsuliyyətli Cəmiyyətinin rəhbərliyinə

31 DEKABR 2019-Cİ İL TARİXİNƏ BALANS HESABATI
*(Azərbaycan Manatı ilə)*

| AKTİVLƏR | 31 dekabr 2019-ci il |
|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | |
| | |
| **Torpaq, tikili və avadanlıqlar** | 304,028 |
| **Qeyri-maddi aktivlər** | 2,810 |
| **Təxirə salınmış vergi aktivləri** | |
| **Uzunmüddətli debitor borcları** | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | |
| dövlət qiymətli kağızları | |
| qeyri-dövlət qiymətli kağızları | |
| sair maliyyə aktivləri | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | |
| **Sair aktivlər** | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **306,838** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | |
| | |
| **Debitor borcları:** | **45,099** |
| alıcılar və sifarişçilərlə hesablaşmalar | 45,099 |
| vergilərlə bağlı hesablaşmalar | |
| asılı təşkilatlar üzrə | |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **749,301** |
| kassa | 41,953 |
| hesablaşma hesabı | 412,693 |
| valyuta hesabı | 75,522 |
| digər hesablar | 219,133 |
| **Mal və material:** | **1,157,595** |
| mal | 1,157,595 |
| xammal və material | |
| azqiymətli və tezköhnələn əşyalar | |
| **Sair qısamüddətli aktivlər:** | **830,719** |
| Verilmiş avanslar | 830,594 |
| gələcək hesabat dövrlərinin xərcləri | |
| təhtəl hesablar | 125,00 |
| **Sair aktivlər** | **5,354** |
| ***Cəmi qısamüddətli aktivlər*** | **2,788,068** |
| **CƏMİ AKTİVLƏR** | **3,094,906** |

“ATL TECH” Məhdud Məhsuliyyətli Cəmiyyətinin rəhbərliyinə

31 DEKABR 2019-CU İL TARİXİNƏ BALANS HESABATI
*(Azərbaycan Manatı ilə)*

1

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 31 dekabr 2019-ci il |
|---|---|
| **I .KAPİTAL** | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **100.00** |
| **Emissiya gəliri** | |
| **Kapital ehtiyatları:** | |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | |
| xüsusi məqsədli maliyyələşmələr | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **443,735** |
| hesabat dövründə xalis mənfəət (zərər) | 305,032 |
| mənfəət (zərər) üzrə düzəlişlər | |
| keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət/(məcmu zərər) | 1,171,047 |
| mənfəətin digər istifadəsi | (74,686) |
| elan edilmiş dividentlər mənfəətin digər istifadəsi | (957,658) |
| **CƏMİ KAPİTAL** | **443,835** |
| **II UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | |
| **Sığorta ehtiyatları:** | |
| həyat sığortası sahəsi üzrə | |
| qeyri-həyat sığortası üzrə | |
| **Kreditor borcları:** | |
| əməyin ödənilməsi üzrə | |
| büdcə üzrə | |
| sosial sığorta və təminat üzrə | |
| digər məcburi ödənişlər üzrə | |
| asılı təşkilatlar üzrə | |
| sair kreditorlar | |
| bank kreditləri üzrə | |
| **Sair uzunmüddətli öhdəliklər:** | |
| gələcək hesabat dövrünün gəlirləri | |
| alınmış avanslar | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | |
| **Sair öhdəliklər** | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | **94,164** |
| **Kreditor borcları:** | **19,869** |
| malsatan və podratçılarla hesablaşmalar | 19,869 |
| əməyin ödənilməsi üzrə | |
| sosial sığorta və təminat üzrə | |
| digər məcburi ödənişlər üzrə | |
| sair kreditorlar | |

| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR (davamı)** | **31 dekabr 2019-ci il** |
|---|---|
| **Sair qısamüddətli öhdəliklər:** | **2,537,038** |
| gələcək hesabat dövrünün gəlirləri | |
| alınmış avanslar | 2,537,038 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | |
| **Sair öhdəliklər** | |
| | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **2,651,071** |
| | |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **2,651,071** |
| | |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **3,094,906** |
| **Qeyd: Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi*** | |
| ***Bu sətrlər üzrə məlumatlar balansa daxil edilmir** | |
| | |

**Rəhbərlik adından:**

**Direktor Anar Əliyev**
06 May 2020-ci il
Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti ATL TECH Limited Liability Company Azerbaijan Republic

“ATL TECH” Məhdud Məhsuliyyətli Cəmiyyətinin rəhbərliyinə
01 YANVAR 2019-Cİ İL TARİXDƏN 31 DEKABR 2019-Cİ İL TARİXİNƏDƏK OLAN DÖVR ÜZRƏ MƏNFƏƏT VƏ ZƏRƏR HESABATI

| MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT | 01 yanvar 2019-ci il tarixdən 31 dekabr 2019-ci il tarixinədək olan dövr üzrə |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | **6,355,536** |
| İşlərin görülməsindən və malların satışından | 6,355,536 |
| **Amortizasiya olunan əsas vəsaitlərin təqdim edilməsindən gəlirlər** | |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | |
| **Sair gəlirlər** | 964,00 |
| **Xarici valyutaların manata nisbətən məzənnəsinin dəyişməsindən yaranan fərq** | 558,00 |
| **CƏMİ GƏLİRLƏR** | **6,357,058** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **(5,742,335)** |
| Əməyin ödənilməsi üzrə xərclər | (577,594) |
| Sosial sığorta və təminat üzrə xərclər | (106,534) |
| Xammal və materiallar | (76,402) |
| Malın dəyəri | (4,267,652) |
| İcarə ödənişləri | (193,058) |
| Kommunal xərclər | (10,508) |
| Rabitə xərcləri | (67,912) |
| Bank xidmətləri üzrə xərclər | (36,724) |
| Reklam xərcləri | (161,998) |
| Amortizasiya ayrılmaları | (83,370) |
| Sığorta üzrə xərclər | (115,206) |
| Gəlirdən çıxılan vergilər | (2,939) |
| Yanacaq xərcləri | (22,225) |
| Nəqliyyat xərcləri | (17,807) |
| Təmir xərcləri | (2,406) |
| **İşlərin aparılması xərcləri** | **(233,433)** |
| **Sair xərclər** | |
| **CƏMİ XƏRCLƏR** | **(5,975,768)** |
| **Maliyyə mənfəəti (zərəri)** | **381,290** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **381,290** |
| **Mənfəət vergisi** | **76,258** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **305,032** |

**Rəhbərlik adından:**

**Direktor Anar Əliyev**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti ATL TECH Limited Liability Company Azerbaijan Republic

“ATL TECH” Məhdud Məhsuliyyətli Cəmiyyətinin rəhbərliyinə
PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
06 May 2020-ci il
Bakı, Azərbaycan Respublikası

| | Nizamnamə Kapitalı | Bölüşdü-rülməmiş mənfəət | Kapital ehtiyatları | Cəmi Kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2018 tarixə qalıq** | **100** | **1, 171,047** | | **1,171,147** |
| **Aktivlərin yenidən qiymətləndirilməsi** | | | | |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **305,032** | | **305,032** |
| **Mülkiyyətçilərin kapital qoyuluşları** | | | | |
| **Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər)və mənfəətin istifadəsi** | | **(1,032,344)** | | **(1,032,344)** |
| **31 dekabr 2019 tarixə qalıq** | **100** | **443,735** | | **443,835** |

**Rəhbərlik adından:**

**Direktor** **Anar Əliyev**

06 May 2020-ci il
Bakı, Azərbaycan Respublikası

“ATL TECH” Məhdud Məsuliyyətli Cəmiyyətinin rəhbərliyinə
KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

| ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ: | 31 dekabr 2019-cü il tarixində başa çatmış il üzrə |
|---|---|
| Mənfəət vergisindən əvvəlki gəlir | 381,290 |
| Əmlak, tikili və avadanlıqların amortizasiyası | 83,110 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 312 |
| Təqdim edilmiş və silinmiş əsas vəsaitlərdən mənfəət/zərər | 0.00 |
| Xarici valyuta mübadiləsi üzrə zərər, xalis | 558.00 |
| Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri | **465,270** |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər** | |
| **Əməliyyat aktivlərində (artma)/azalma:** | |
| Cari vergi öhdəliklərində | |
| Mal-material ehtiyatları | 415,834 |
| Debitor borcları və alınacaq digər vəsaitlər | (33,978) |
| Ödənilmiş avanslar | (649,604) |
| Digər aktivlər | 5,241 |
| **Əməliyyat öhdəklirərində artma/(azalma):** | |
| Alınmış avanslar | 1,278,367 |
| Kreditor borcları və ödəniləcək digər vəsaitlər | (1,037,952) |
| Ödəniləcək vergilər | (152,277) |
| Digər öhdəliklər | |
| **Əməliyyat fəaliyyətində yönəldilmiş xalis pul vəsaitləri** | **3,573,253** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | |
| Əmlak, tikili və avadanlıqlar üzrə ödənişlər | 82,521 |
| Qeyri-maddi aktivlər üzrə ödənişlər | 0 |
| Əmlak və avadanlıqların silinməsindən daxilolmalar | 0 |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **82,521** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | |
| Ödənilmiş dividendlər | 957,658 |
| Mənfəətdən digər istifadə | 74,686 |
| **Maliyyələşdirmə fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **1,032,344** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALETLƏRİNDƏ XALİS AZALMA | **8,629** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | **757,930** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna* | **749,301** |

**Rəhbərlik adından:**

**Direktor** **Anar Əliyev**